# İKİNCİ QIZIL

## Parisdə növbəti dəfə Azərbaycan bayrağı zirvədə dalğalandı





Dünyanın ən möhtəşəm idman bayramında - XXXIII Yay Olimpiya Oyunlarında gərgin mübarizə davam edir. Daim qazandığı qələbələrlə xalqımızı sevindirən atletlərimizin qarşıdakı günlərdə medal sayını artıracağına, ümidləri doğruldacaqlarına inam tamdır. Təbii ki, medalların sayında qızılın çox olmasını arzulayırıq. Amma dünyanın ən güclü idmançılarının mübarizə apardığı turnirdə istənilən əyarlı medallar böyük qələbə deməkdir.

Sevindirici haldır ki, ilk olaraq Parisdə cüdoçumuz Hidayət Heydərov qızıl medal qazanmaqla xalqımızı sevindirdi. Növbəti qürur dolu anları Azərbaycana cüdoçumuz Zelim Kotsoyev yaşadıb. Belə ki, təmsilçimiz Fransanın paytaxtı Parisdə növbəti qızıl medalı qazanaraq, dövlət himnimizi səsləndirdi, bayrağımızı hamıdan yüksəkdə dalğalandırdı. Necə deyərlər, Parisdə növbəti dəfə Azərbaycan bayrağı zirvədə dalğalandı.

→ 11



## XXXIII Paris Yay Olimpiya Oyunları

# İKİNCİ QIZIL

## Parisdə növbəti dəfə Azərbaycan bayrağı zirvədə dalğalandı

*Əvvəli 1-ci səh.*

Azərbaycan millisinin Yay Olimpiya Oyunlarında medal ümidlərindən sayılan və 100 kq çəki dərəcəsində yarışan Zelim Kotsoyev 1/8 finalda Polşa idmançısı Pyotr Kuçera ilə qarşılaşıb. Təmsilçimiz ilk görüşündə ipponla qalib gələrək 1/4 finala yüksəlib. Bu mərhələdə onun rəqibi israilli Peter Palçik olub. Dünya çempionumuz bu görüşü də qalib başa vuraraq adını yarımfinala yazdırıb.

Cüdoçumuz finala gedən yolda özbəkistanlı Muzaffarbek Turoboyevlə qarşılaşıb. Rəqibinə qalib gələn idmançımız adını finala yazdırıb.

Kotsoyev çempionluq görüşündə gürcüstanlı İlya Sulamanidze ilə güləşdən qalib ayrılaraq Olimpiya çempionu ünvanına sahib olub.

Qeyd edək ki, Zelim Kotsoyev hazırda öz çəkisində dünya reytinqində 1-cidir. Osetiyalı milliləşdirilmiş legionerimiz 2023-cü ilin noyabrında Avropa, 2024-cü ilin mayında isə dünya çempionu olub.







Z.Kotsoyev ilk növbədə Azərbaycan xalqını təbrik edib: "Bilirəm ki, çoxları məni dəstəkləyirdi, azarkeşlik edirdi. Bu qələbə komanda yoldaşlarım, ailəm, dostlarım üçündür. Biz yalnız özümüz üçün yarışsaydıq, bu qədər motivasiyamız olmazdı. Bilmirəm nə deyim. Sən bütün həyatın boyu ona doğru gedirsən və ... indi bilmirəm bunu necə şərh edim. Çox şadam".

İdmançımız Parisdə daha əvvəl qızıl medal qazanan komanda yoldaşı Hidayət Heydərovun ona çox dəstək olduğunu söyləyib: "Hidayətlə bizim çox yaxşı əlaqəmiz var. Birlikdə məşq edirik, birlikdə istirahət edirik. 2 gün əvvəl o, çempion olanda çox sevinirdim. Hidayətin çempionluğu mənim üçün ikiqat motivasiya oldu. Dünən gecə yatmamışdan öncə mesaj yazdı, dedi ki, heç nə düşünmə, sadəcə, tatamiyə çıx və bacardığını et. Uğurumda şəxsi məşqçim Elxan Məmmədovun, eləcə də millinin baş məşqçisinin də böyük rolu var. Federasiya rəhbərliyi bizə hər cür dəstək olur. Mən idmançılarla bu cür ünsiyyət quran, onlara dəstək olan federasiya prezidenti görməmişəm. Böyük komandamız var. Necə işlədiksə, elə də nəticə qazandıq".

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*